# Avtomatik identifikasiyasının tətbiqi

Oktyabr ayının sonunda GS1 Azərbaycan Cəmiyyəti ölkəmizin qədim diyarı Şamaxı şəhərində yerləşən «Star» televizorları və digər məişət təyinatlı avadanlıqları istehsal edən zavodda səyyar təqdimat seminarı keçirib. Tədbirdə zavodun aparıcı mütəxəssisləri, sahə və sex rəhbərləri iştirak ediblər.

Seminar televizor yığılması prosesi üçün nəzərdə tutulan ştrixkodların istifadəsinin praktiki mə - sələlərinə həsr edilmişdi.

Seminar iştirakçılarına video materiallardan istifadə etməklə avtomatik identifikasiya texnologi - yaları barədə, ştrixli kodlaşdırmada üzləşən səhvlərə dair ətraflı məlumat verilib.

Zavodun direktoru Təranə Hüseynova bildirib ki, dövriyyənin artması və fəaliyyətin genişlənmə- si ilə əlaqədar zəruri məlumata tam həcmdə malik olmaq, sürətli əmtəə axınının uçotunun səhvsiz aparılması mümkünsüzdür. Və burda uçotun ən effektiv və ucuz üsulu kimi ştrixli kodlaşdırma texnologiyasının tətbiqini göstərmək olar.

Zavodun sexlərində texnolojı prosesinin təşkili ilə tanış olan GS1 Azərbaycan Cəmiyyətinin mü - təxəssisləri ştrixkodların istifadəsi ilə bağlı öz dəyərli məsləhətlərini veriblər.

Seminar göstərdi ki, «Star» müəssisəsində ştrixli kod texnologiyasının tətbiqi çox aktualdı.

Zavodun direktoru Təranə xanım keçirilmiş tədbir üçün GS1 Azərbaycan Cəmiyyətinin mütəxəs- sislərinə öz minnətdarlığını bildirdi.










